# Nəcib missiya

Azərbaycanda ərəbşünaslıq üzrə ilk qadın filologiya elmləri doktoru, professor Aida xanım İmanquliyevanın və akademik Arif Paşayevin ailəsində dünyaya gəlmək xoşbəxtliyin qapısını açmaqdır. Orta məktəbi qızıl medalla bitirib Tibb İnstitutuna qəbul olmaq xoşbəxliyin addım səsidir. Söz dünyasının ədəbi və ədəbli fikir yazarı Mir Cəlal Paşayev, Azərbaycan mətbuatının sönməz işığı Nəsir İmanquliyev kimi şəxsiyyətlərin nəvəsi olmaq xoşbəxtliyin sorağıdır. Ulu Öndər Heydər Əliyevin və oftalmologiya elmi ilə qaranlığa qalib gələn akademik Zərifə xanım Əliyevanın gəlini olmaq xoşbəxtliyin şərəfi və ləyaqətidir. Prezident İlham Əliyevin həyat yoldaşı kimi onunla çiyin-çiyinə dayanmaq, yan-yana addımlamaq, üç övlad anası olmaq, dünyanın ən gözəl, gənc nənəsi kimi diqqətləri cəlb etmək xoşbəxtliyin elə özüdür. Vətən müharibəsi günlərində Müzəffər Ali Baş Komandanla 44 gün eyni hissləri yaşamaq, eyni duyğuların burulğanında "üzmək", gecələr yuxusuz qalmaq, sabahı dirigözlü açmaq, həyəcandan, gözləməkdən az qala nəfəssiz qalmaq, boğulmaq, Vətən oğullarının güllə yarasına sığal çəkmək, şəhid övladlara ağı demək, anaların bağrına basmaq, göz yaşını gizlədə bilməmək, qazilər haqqında "fəxr edirəm ki, belə qardaşlarım var" deyə qürurlandığını paylaşmaq və bütün bu yaşantıların sonunda Zəfər sevincini yaşamaq isə xoşbəxtliyin müqəddəs məqamıdır.

O, bu məqama ömrün pillələrini Azərbaycan qadınına məxsus zəkası, müdrikliyi, sədaqəti, vəfası və etibarı, yüksək xanımlıq keyfiyyətləri ilə çatıb. Azərbaycan və dünya siyasi arenasında ictimai-siyasi fəallığı ilə seçilən, cəmiyyətin inkişafında, dövlət quruculuğu proseslərində böyük rol oynayan Mehriban xanım Əliyevanın vətən və xalq üçün son 20 ildə gördüyü işləri sadalasaq, təbii ki, bir qəzet məqaləsinə sığmaz. Amma ömründən keçən illərdə gördüyü işlərə möhür vuran bəzi məqamları xatırlamamaq mümkün deyil.

Heydər Əliyev Fondunun prezidenti, ICESCO-nun xoşməramlı səfiri, Birinci vitse-prezident, birinci xanım Mehriban Əliyeva bütün zamanlarda həm ictimai xadim, həm ailəsinin xanımı, həm də ana kimi qadınlarımıza cəmiyyət həyatında layiqli yer tutmaq nümunəsini göstərib. Birinci vitse-prezident Avropada və dünyada ciddi mədəni və sosial layihələrə verdiyi dəstəklə yaddaşlara hopub. Vaxt var idi Azərbaycan hər tərəfdən mühasirəyə alınmışdı, informasiya blokadasından əziyyət çəkirdi. Dünyada ölkəmizə qarşı ikili standartların hökm sürdüyü belə bir zamanda işğal altında olan Qarabağ həqiqətlərinin dünyaya çatdırılması üçün Mehriban xanımın layihələri informasiya blokadasını yarıb.

Mehriban xanım Birinci vitse-prezident kimi öz gərgin fəaliyyəti ilə hər zaman Azərbaycan xalqının xidmətində dayanıb. Onun bu humanist və xeyirxah xidmətləri bütün türk və dünya mətbuatında xüsusi qeyd olunur, təşəbbüslərinin əks-sədası Azərbaycandan kənara yayılır. Rəhbərlik etdiyi Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə gördüyü xeyriyyə işləri insanların qəlbinə sevgi ilə hopur. Fəaliyyəti ilə həmkarlarını heyran edən birinci xanım hər zaman zərif, mehriban və xeyirxah, şəfqətli və humanist addımlar atır. Və bu addımlar mənalı bir ömrün naxışları kimi xanım Mehriban Əliyevanın həyat yolunu nurlandırır. Məhz onun təşəbbüsü ilə Azərbaycan muğamı və dünyanın ən qədim tarixi-arxeoloji qoruğu olan Qobustan yaşayış məskəni, aşıq sənəti və Azərbaycan kəlağayısı, Novruz bayramı və milli atüstü oyun olan Çövkən dünya qeyri-maddi mədəni irs siyahısına salınıb.

*Gözəl, zərif, kübar, incə və işıqlı Mehriban xanım ömründən keçən illərin özəl anlarını toplasa, nə qədər edər? Azmı olar, çoxmu olar? Bunu yəqin ki, özü daha yaxşı bilir. Yəqin onu da bilir ki, biz - onu sevənlər, eləcə də onun sevdikləri, doğmaları, əzizləri bu gün qərar tutduğu müdrikliyin zirvəsində onunlayıq.*

**İnsanın elə bir yaş dövrü var ki, ona ömrün kamillik zirvəsi deyilir. Əslində, kamilliyin yaşı olmur. İnsan hər yaşda bu ali dəyərə sahib ola bilir. Amma müdrikliyin qapısından içəri girən kamil insan bu zirvədən keçmişə boylananda illərin o tayında qalan acılı-şirinli günləri aydın görmək olur.**

Məhz həmin görüntüdə insan qoyub gəldiklərini yenidən "çeşidləyib" nəyin ağ, nəyin qara olduğunu anlayır, ötən günlərə dönməyin mümkünsüzlüyünü kamillik işığında yenidən dərk edir.

Amma o da var ki, hamı bu zirvəyə layiqincə gedib çata bilmir. Çünki ora gedən yol asan və rahat deyil. Tanrı heç də hər kəsə bu yolun məsuliyyətini yükləmir". İnsan da var ki, lap gəncliyindən çıxdığı yolun kamilliyə doğru istiqamət götürdüyünün fərqinə varır. Bütün ağrı-acılarını, sevgi və sevinclərini, taleyin ona bəxş etdiyi şansın, ya da şanssızlığın "yük"ünü özü ilə daşıyıb asanlıqla o ali zirvəyə aparır. Bu, tək-tək insana nəsib olan taledir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva belə bir taleyin daşıyıcısı olan birincilərdəndir. Birinci xanım o qədər mehriban, zərif, incə, gözəldir ki, bunlar bəzən adama illüziya kimi görünür, nağıl təsiri bağışlayır. Amma bu, nə illüziyadır, nə də nağıldır. Bu, Tanrının bir Azərbaycan xanımına verdiyi lütfdür. Bu gün Mehriban xanım Əliyeva dönüb arxaya baxanda yəqin ki, bəzən keçmişin acılı-şirinli xatirələrini vərəqləyərək ötən günlərin nostalgiyası ilə duyğulanır. Keçmiş isə çox da uzaqda deyil, əlini uzatsa "tuta" bilər. Və həmin yaxın keçmişin görünən tərəfi Azərbaycan xalqının gözü önündən gəlib keçib. Görünməyən tərəfində hansı yaşantıların olduğunu isə yalnız özü bilir.

Əslində, bu yaşantılar ömrün müəyyən bir dövrünü əhatə edənlərdir. Hələ taleyin uzun yolları, bu yollarda irəliyə doğru addımlamaq var. Bu yolda yıxılsan da, büdrəsən də, yenidən ayaqda durmaq var. Nə etməli? Həyat belədir - tufanlı, boranlı. Gərək bu tufanlardan keçib boranı üstələməyi bacarasan, nəyin arxasınca düşdüyünü, nəyi axtardığını biləsən.

İnsan nə axtarır, nəyi gözləyir ki?! Xoşbəxtliyimi, səadətimi? Bəlkə insan ömrü boyu özünü axtarır?! Heç uydurma "uçan xalça" da insanın özünü özündən uzaqlaşdıra bilməz. Xoşbəxtlik axtarmaq o demək deyil ki, onun üçün düz-dünyanı gəzib-dolaşasan. Xoşbəxtlik və bədbəxtlik insanın öz içindədir. Onu yük kimi özünlə daşıyırsan - belədən-beləyə, elədən-eləyə. Bu, çox etibarlı yükdür. Hara gedirsən get - nə itəcək, nə batacaq, nə azalacaq, nə də artacaq... Heç "xəyanət" də etməyəcək.

Biz Mehriban xanımın "xoşbəxtlik yükü" daşıdığına əminik. Onun ömür payının ayrı-ayrı yaşantıları bu xoşbəxtliyin ayrı-ayrı anlarıdır.

**Züleyxa ƏLİYEVA,**
**"Azərbaycan"**

Azərbaycan.- 2024.- 25 avqust, №182.- S.8.